Azərbaycan.-2025.- 17 iyul (№ 145).- S.9.

# "Müasir gənclik: milli dəyərlər, yeni düşüncə və gələcəyə baxış"

**İyulun 16-da "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və YAP İsmayıllı rayon təşkilatının birgə təşkilatçılığı ilə "Müasir gənclik: milli dəyərlər, yeni düşüncə və gələcəyə baxış" mövzusunda tədbir keçirilib.**






Əvvəlcə tədbir iştirakçıları İsmayıllı şəhərində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov gənclərin hər bir cəmiyyətin aparıcı qüvvəsi olduğunu deyib. Onun sözlərinə görə, Azərbaycan gəncləri ölkəmizin ümumi inkişafına mühüm töhfə verirlər. Z.Muradov qeyd edib ki, bundan sonrakı mərhələdə də onların üzərinə düşən əsas vəzifə müstəqil dövlətimizi və milli dəyərlərimizi qorumaqdan ibarətdir.

Tədbirin moderatoru, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının əhəmiyyətindən bəhs edib. Z.Musayeva qeyd edib ki, Azərbaycanda dövlət gənclər siyasətinin müəllifi Ulu Öndər Heydər Əliyevdir: "Ümummilli Lider hər zaman Azərbaycan gəncliyinə böyük qayğı ilə yanaşıb. 2 fevral tarixinin Azərbaycanda Gənclər Günü elan olunması dahi şəxsiyyətin gənclərə verdiyi dəyərin parlaq ifadəsidir. Bu gün dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclərimiz bundan sonra da onlara göstərilən etimadı doğrultmalı, milli dəyərlərimizi qorumaqla daha uğurlu gələcək üçün çalışmalıdırlar".

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb: "Prezident İlham Əliyev tərəfindən gənclərə diqqət və qayğı göstərilməsi, qəbul olunmuş proqramlar dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına şərait yaradıb. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Bu prosesdə gənclərimizin milli-mənəvi dəyərlərimizə sadiqliyi, bu dəyərlərə ehtiramı xüsusi vurğulanmalıdır".

YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Səbinə Xasayeva isə rəşadətli Azərbaycan Ordusunun tarixi Qələbəsinin milli kimliyimizin, vətənpərvərlik və dövlətçilik dəyərlərimizin real təzahürü olduğunu deyib.

O qeyd edib ki, Azərbaycan Ordusunun sıralarındakı Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz öz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan şanlı Zəfər ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, xalqımız otuzillik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu. "Həmin gənclərin mütləq əksəriyyəti Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin hakimiyyəti dövründə formalaşmış gənclərdir. Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərib, ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında fəal iştirak ediblər. Beləliklə, gənclərimiz bu müqəddəs mübarizədə milli dəyərlərimizə nə qədər sadiq olduqlarını bir daha təsdiqlədilər", - deyə S.Xasayeva vurğulayıb.

Tədbirdə həmçinin İsmayıllı rayonu üzrə təhsil sektorunun müdiri Rəşid Məmmədli və rayonun Dövlət Peşə Təhsil Mərkəzinin direktor müavini Nərmin Osmanlı çıxış edərək ölkədə aparılan məqsədyönlü gənclər siyasətindən və bu istiqamətdə atılan addımlardan, qarşıda dayanan vacib hədəflərdən danışıblar.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Daha sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.